

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 137 (23.549)

*21 avqust 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Dövlət proqramı icra olunur*

## "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir

*Muxtar respublikamızda irimiqyaslı infrastruktur layihələrinin icrası, əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, bütün sahələrdə maddi-texniki bazanın gücləndirilməsi və insanların rifahının yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilməkdədir. Bu işdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın mühüm rolu vardır.*

Naxçıvanda iqtisadiyyatın əsasını təşkil edən sahələr içərisində kənd təsərrüfatı öz payına görə əhəmiyyətli çəkiyə malikdir. Dövlət proqramında aqrar sahənin inkişafı ilə bağlı müəyyən edilmiş tapşırıqların mühüm əhəmiyyəti vardır. Bu istiqamətdə işlər ikinci rübdə də davam etdirilmişdir. Keçirilən iməciliklərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iştirak etmiş, mövsümə uyğun meyvə bağlarının salınması və yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar vermişdir. Muxtar respublikada aprel-iyun aylarında 6,2 hektarı üzüm bağı olmaqla, ümumilikdə, 43,6 hektar yeni meyvə bağları salınmış, 40,6 hektar sahədə meyvə tingləri ilə bərpa işləri aparılmış, 40 min 132 müxtəlif növ meyvə tingi, 8 min 845 üzüm kolu əkin dövriyyəsinə daxil edilmişdir.

Aqrar sahədə məhsuldarlığa təsir göstərən mühüm amillərdən biri də torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılmasıdır. Aprelin 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Sədərək rayonunda işğaldan azad edilmiş ərazilərdə olmuş, görülən işlərlə maraqlanmışdır. Mayın 21-də Ali Məclisin Sədri yeni alınmış kənd təsərrüfatı texnikalarına baxmış və onlardan səmərəli istifadə ilə bağlı tapşırıqlar vermişdir. Ümumilikdə, ikinci rübdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində 81 müxtəlif texnika və texnoloji avadanlıq alınaraq ehtiyat yaradılmış, 100 avadanlığın güzəştli şərtlərlə satışı təşkil olunmuşdur. Suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Şahbuz rayonunda qapalı suvarma şəbəkəsinin tikintisi üçün 270 hektar torpaq sahəsinin topoqrafik planı hazırlanmışdır. Həmçinin Gilançaydan qidalanması nəzərdə tutulan suvarma xəttinin əhatə etdiyi 1190 hektar torpaq sahəsində topoqrafik planaalma işləri aparılmışdır. Aqrar sahədə sığortanın tətbiqi ilə bağlı tədbirlər də diqqətdə saxlanılmış, 114 baş iribuynuzlu, 260 baş xırdabuynuzlu heyvan və 30 arı ailəsi sığortalanmışdır.

İkinci rübdə muxtar respublikada 168,7 hektar ərazidə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır. Eyni zamanda Şərur rayonunun Cəlilkəndində 1, Sədərək rayonunun Heydərabad qəsəbəsində 3 subartezian quyusu qazılaraq istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında aqrar sektorun bütün sahələrində olduğu kimi, heyvandarlıq və quşçuluq təsərrüfatlarının da inkişafına dövlət dəstəyi göstərilir. Bu da həmin təsərrüfatların sayının hər mövsüm daha da artmasına gətirib çıxarır. İkinci rübdə dövlət maliyyə dəstəyi hesabına 1 quşçuluq, 11 heyvandarlıq təsərrüfatının yaradılması, 9 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Həmçinin 2 quşçuluq, 8 heyvandarlıq təsərrüfatının yaradılması, 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, 1 heyvandarlıq və 1 quşçuluq təsərrüfatının yenidən qurulması isə davam etdirilmişdir.

Aprel-iyun aylarında torpaqların kadastr uçotu informasiya sisteminin fəaliyyətini təmin edəcək proqram təminatının sınaq rejimində istismarı davam etdirilmiş, qarşıya çıxan nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı təkliflər hazırlanmışdır. Şahbuz rayonunun Şahbuz, Mahmudoba, Sələsüz və Türkeş bələdiyyələri üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülmüş, Şərur rayonunun bələdiyyələri üzrə məlumatların daxil edilməsi başa çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə aprelin 9-da Naxçıvan şəhərində "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni kompleks, mayın 22-də isə Şahbuz rayonunun Badamlı qəsəbəsində "Badamlı" Mineral Sular Zavodu istifadəyə verilmişdir. Ali Məclisin Sədri mayın 18-də Muğancıq-Mehrab kəndində tam orta məktəbin, Məmmədsabir kəndində həkim ambulatoriyasının, hər iki kənddə xidmət və kənd mərkəzlərinin, Qarxun-Muğancıq-Mehrab-Məmmədsabir kənd avtomobil yolunun açılışı ilə bağlı tədbirlərdə iştirak etmişdir. Mədəniyyət obyektlərində də təmir-yenidənqurma işləri davam etdirilmişdir. Ali Məclisin Sədri aprelin 15-də Yusif Küseyir oğlu türbəsində, mayın 5-də Naxçıvan şəhər buzxanasında, mayın 27-də isə Kəngərli rayonunun Şahtaxtı kəndindəki Şərq hamamında başa çatdırılan bərpa işləri ilə maraqlanmışdır.

İkinci rübdə proqramın icrasına uyğun olaraq təhsil və mədəniyyət obyektlərində təmir-yenidənqurma işləri davam etdirilmiş, Naxçıvan Dövlət Universitetinin Kitabxanasında, Memarlıq və mühəndislik, Konservatoriya, Beynəlxalq münasibətlər və hüquq fakültələrinin binalarında, Magistratura Mərkəzində, Şərur rayonunda Texniki Peşə və Sürücülük Məktəbinin, Fizika-Riyaziyyat Təmayüllü Liseyin binalarında, Naxçıvan Şəhər Bayraq Meydanında, Pirqəmiş məscidində, Babək Rayon Mədəniyyət Sarayında, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində, Əlincə qalasında təmir, Naxçıvan Beynəlxalq Hava Limanına gedən yoldakı "Naxçıvan" abidəsində tərtibat işləri başa çatdırılmışdır.

Mədəniyyət obyektlərinin bərpa olunması ilə yanaşı, ənənəvi xalq yaradıcılığı sahələrinin inkişafı da diqqət mərkəzində saxlanılmış, Naxçıvan Dövlət Xalça Muzeyində milli naxışlı xalça toxunmuş, "Tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ çap məhsullarının satış mərkəzi"ndə 809 manat dəyərində 95 əl işi satılmışdır.

Dövlət proqramında nəzərdə tutulan və icrası həyata keçirilən tədbirlər muxtar respublikada enerji təchizatı sahəsində müsbət dinamikanın əldə olunmasına gətirib çıxarmışdır. Bu tədbirlərin həyata keçirilməsi ikinci rübdə də diqqət mərkəzində olmuşdur. Ali Məclisin Sədri iyunun 10-da Ordubad rayonunun Tivi kəndində tikiləcək yeni su elektrik stansiyasının layihəsinə baxmış, stansiyanın bünövrəsinə beton qarışığı tökmüş, tikinti işlərinə başlanılması və keyfiyyətə diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir. Aprel-iyun aylarında Kəngərli rayonunun Qabıllı kəndində 3 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilmiş, ikinci rübdən sonra istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə keçirilən açılış mərasimində, eyni zamanda Dövlət Energetika Xidmətinə yeni avtomobil və texnikalar da təqdim olunmuşdur.

Naxçıvanda yeni salınan avtomobil yollarının, insanların rahatlığına xidmət edən ictimai nəqliyyat vasitələrinin sayının çoxalması bu sahədə beynəlxalq standartlara cavab verən maddi-texniki bazanın formalaşmasına səbəb olmuşdur. Dövlət proqramında bu istiqamətdə müəyyən edilmiş və əhalinin rahat hərəkətinin təmin edilməsinə yönələn tədbirlər mühüm əhəmiyyətə malikdir. İkinci rübdə şəhərdaxili nəqliyyatda işləyən avtobusların daha müasir və beynəlxalq standartlara cavab verən nəqliyyat vasitələri ilə əvəz olunması işi davam etdirilmişdir. Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə 6 "King-Long XMQ 6770 G" markalı avtobus alınaraq marşruta buraxılmışdır. Bu münasibətlə iyunun 22-də keçirilən tədbirdə avtobuslara baxış olmuş, Ali Məclisin Sədri xidmətin təşkili ilə bağlı tapşırıqlar vermişdir.













Nəqliyyatın inkişafı cəmiyyətin inkişafı ilə əlaqəli olmuş, istehsal sahələrinin artımında və məhsuldar qüvvələrin formalaşmasında təsiredici amillərdən biri kimi daim təkmilləşmiş və formalaşmışdır. Aprel-iyun aylarında muxtar respublikada hava və dəmir yolu nəqliyyatında əhaliyə göstərilən xidmətin günün tələbləri səviyyəsində qurulması ilə bağlı işlər görülmüş, Naxçıvan Beynəlxalq Hava Limanının çəpərboyu sektorlarında hasarların hündürlüyü artırılmış, yeni asfalt örtüyü salınmışdır. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Culfa Lokomotiv Deposunda lokomotivlər 7 dəfə texniki baxışdan keçirilmiş, Culfa İstismar Vaqon Deposunda 11 vaqon təmir edilmişdir. 123 yararsız ağac şpal yarımyararlı şpallarla, 5 yararsız ağac şpal isə yarımyararlı dəmir-beton şpallarla əvəz olunmuşdur. Stansiyalarda 50 mis relsbirləşdiricisi, 1910 rezin altlıq dəyişdirilmiş, 4 izolyasiya calaqı və yararsız vəziyyətdə olan 25 izolyator yenisi ilə əvəz olunmuşdur.

Yeni və rahat yollar iqtisadiyyatın inkişafına, insanların isə rahatlığına xidmət edir. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul olunmuş Fəaliyyət Proqramında da qeyd olunduğu kimi: ***"Muxtar respublikada qurulan müasir yollar iqtisadiyyatın şaxələndirilməsinə, yaşayış məntəqələrinin və turizmin inkişafına töhfə verir. Bundan sonra da muxtar respublikada yol tikintisinə geniş yer verilməli, keyfiyyət amilinə xüsusi diqqət yetirilməli, sərnişindaşıma işinə və nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət olunmalıdır. Eyni zamanda yeni texnologiyaların tətbiqi sahəsində fəaliyyət təkmilləşdirilməli, göstərilən xidmətlərin keyfiyyəti yüksəldilməlidir".***

Aprel-iyun aylarında Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kəndləri üzrə avtomobil yolunun tikintisi, Culfa-Ordubad magistral avtomobil yolunun yenidən qurulması davam etdirilmiş, Şərur Rayon Elektrik Şəbəkəsinin Çomaxtur yarımstansiyası binasının və Culfa Rayon Rabitə Evinin ətrafında asfalt-beton işləri, Ərəfsə kəndində XVI-XVII əsrlərə aid körpünün bərpası, Naxçıvan Muxtar Respublikası Süni Mayalanma Mərkəzində, Şərur rayonunun

*Ardı 2-ci səhifədə*



Muğancıq-Mehrab kəndində, Kəngərli rayonunun Şahtaxtı kəndinin Şərq hamamı hissəsində və Culfa şəhərində yolların yenidən qurulması başa çatdırılmışdır. Ali Məclisin Sədri mayın 15-də Culfa şəhərində Heydər Əliyev prospektinin əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirdə görülən işlərlə tanış olmuşdur. Həmin gün, eyni zamanda Culfa rayonunda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evi də istifadəyə verilmişdir.



Muxtar respublikanın sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya və rabitə sahəsinin inkişafı daim diqqətdə saxlanılır. İkinci rübdə Dövlət proqramında rabitə xidmətlərinin yaxşılaşdırılmasını nəzərdə tutan digər tədbirlər də həyata keçirilmiş, muxtar respublika ərazisində 6 min 250 metr fiber-optik kabel xəttinin tikintisi başa çatdırılmışdır. "Evədək optika" layihəsi çərçivəsində 8 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmişdir. İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində 268 dinləyicinin kurslarda iştirakı təmin edilmişdir.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası məqsədilə "Duzdağ Fizioterapiya Mərkəzi" publik hüquqi şəxsin yeni inzibati binasının, Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin tikintisi davam etdirilmiş, "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin nəzdində "Milli yeməklər" İctimai İaşə Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Əhalinin su təminatının yaxşılaşdırılması dövlətimizin sosial siyasətinin prioritet istiqamətlərindəndir. Naxçıvanda istehlakçıların fasiləsiz və keyfiyyətli su təchizatı ilə təmin edilməsi, kanalizasiya sisteminin yaxşılaşdırılması kommunal xidmətlərin inkişafı ilə bağlı yeni imkanlar yaratmaqdadır. İkinci rübdə Dövlət proqramında bu məqsədlə müəyyən edilmiş tədbirlər davam etdirilmiş, Ali Məclisin Sədri aprelin 23-də Sədərək, mayın 27-də isə Kəngərli rayonlarında yeni içməli su təchizatı və kanalizasiya sistemlərinin qurulması layihələrinə baxmış və müvafiq tapşırıqlar vermişdir. Aprel-iyun aylarında Babək, Sədərək və Kəngərli rayonlarında müxtəlif diametrli borularla 58,06 kilometr içməli su xətti və 28,26 kilometr kanalizasiya xətti çəkilmişdir.

Muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələr dövlət tərəfindən hərtərəfli himayə olunur. Proqramda əlil və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə fərdi mənzillərin tikintisi ilə bağlı tapşırıq müəyyən olunmuşdur. İyunun 15-də – Milli Qurtuluş Günündə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar sağlamlığını itirmiş 1 nəfər mənzillə təmin olunmuş, sosial qayğıya ehtiyacı olan 5 nəfərə isə "NAZ Lifan-330" markalı minik avtomobilləri verilmişdir. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Azərbaycanda sabitlik, inkişaf və tərəqqi vardır. Bunlar da ölkəmizdə ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir. Ölkəmiz inkişaf edir, qayğıya ehtiyacı olan insanlara diqqət göstərilir, əməyi ilə fərqlənənlərə dövlət mükafatları verilir. İnsanlarımız rahat yaşayır, yeni iş yerləri açılır, əhalinin rifahı yaxşılaşdırılır. Bunların hamısı ölkəmizin inkişafına, gələcəyinə xidmət edən işlərdir".***



Naxçıvanda kiçik və orta sahibkarlığa göstərilən dövlət qayğısı həyata keçirilən uğurlu iqtisadi siyasətin tərkib hissəsini təşkil edir. Dövlət proqramında da bu sahədə güzəştli kreditlərin verilməsi, ixrac fəaliyyətinin genişləndirilməsi ilə bağlı tapşırıqlar nəzərdə tutulmuşdur. İkinci rübdə sahibkarlıq subyektlərinin ixrac fəaliyyətinin genişləndirilməsi məqsədilə 7 ixrac əməliyyatı üzrə 13 min manatdan çox məbləğdə ixrac təşviqinin ödənilməsi təmin edilmiş, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 23 halda mənşə sertifikatı verilmişdir. Kiçik və orta sahibkarlıq subyektləri üçün Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 21 layihənin maliyyələşdirilməsinə 3 milyon 390 min manat həcmində güzəştli şərtlərlə, banklar tərəfindən isə 1 milyon 845 min 450 manat həcmində kredit verilmişdir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən kəndlərdə kiçikhəcmli emal müəssisələrinin yaradılması üçün 2 layihəyə 13 min manat, arıçılıq, damazlıq təsərrüfatlarının yaradılması üçün 7 layihənin maliyyələşdirilməsinə 106 min 100 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

*Dövlət proqramının icrası muxtar respublikada iqtisadiyyatın çoxşaxəli inkişafını və sosial infrastrukturun daha da gücləndirilməsini təmin edəcəkdir.*

**"Şərq qapısı"**

## İşçi qrupunun növbəti iclası keçirilib



*AMEA Naxçıvan Bölməsində "İlandağ" geoparkının yaradılması ilə əlaqədar işçi qrupunun 8-ci iclası keçirilib.*

Tədbirdə geoparkın yerləşəcəyi ərazinin kompleks qiymətləndirilməsi ilə bağlı görülən işlər, hazırlanmış materiallar və xəritələr müzakirə edilib.

İclasda bölmənin sədri, akademik İsmayıl Hacıyev məlumat verib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublika ərazisində UNESCO səviyyəli "İlandağ" geoparkının yaradılması istiqamətində lazımi işlərin həyata keçirilməsilə bağlı mühüm tapşırıqlar verib. AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti və Naxçıvan Dövlət Universitetinin mütəxəssislərindən ibarət yaradılmış işçi qrupu tərəfindən artıq müəyyən işlərin görüldüyü diqqətə çatdırılıb. Bildirilib ki, 2019-cu ilin may ayından Ordubad, Culfa və Babək rayonları ərazisinə ekspedisiyalara gedilib. 1700 kvadratkilometr sahəni əhatə edən "İlandağ" geoparkının layihələndirilən ərazisinin xəritəsi, bu ərazidə yerləşən tarix-mədəniyyət və arxeoloji abidələrin siyahısı, geoloji, ekoloji, biomüxtəliflik təsvirləri verilib, pasport qeydiyyat kartları hazırlanıb. Nadir təbiət, tarix-memarlıq və arxeoloji obyektlər barədə məlumatlar hazırlanıb və kompüter məlumat bazasının yaradılması üçün materiallar sistemləşdirilib.

İclasda ərazinin geomorfoloji, landşaft materialları, xəritələri və həyata keçirilməsi nəzərdə tutulan digər məsələlər ətrafında fikir mübadiləsi də aparılıb, növbəti iclasın sentyabr ayının əvvəllərində keçiriləcəyi planlaşdırılıb.

## AMEA Naxçıvan Bölməsində istehsal olunan məhsulların sayı artır

*AMEA Naxçıvan Bölməsində elmi istehsalatın hazırlığının vəziyyəti ilə bağlı ümumi yığıncaq keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev bu elmi qurumun tərkibindəki elmi-tədqiqat müəssisələrində aparılan tədqiqatlardan, əldə edilən nəticələrdən danışıb. Bildirib ki, elmə, onun inkişafına dövlət dəstəyi, qayğısı sayəsində elmi tədqiqatların maddi-texniki bazasının möhkəmləndirilməsi səmərəli nəticələrin əldə olunmasına şərait yaradıb. Alim son illər bölmənin Təbii Ehtiyatlar və Bioresurslar institutlarının laboratoriyalarında tətbiqyönümlü tədqiqatlar aparıldığını deyib. O qeyd edib ki, Təbii Ehtiyatlar İnstitutunda "Darıdağ" arsenli suyundan quru qalığın alınması üçün istehsal şəraiti yaradılıb, eyni zamanda Biləv zəy süxurundan üç birləşmənin alınması istiqamətində geniş tədqiqatlar aparılıb. Müalicəvi "Şorsu" palçığı həm krem, həm də quru toz formasında qablaşdırılaraq əczaxanalara satışa göndərilib, o cümlədən Qabıllı və Duzdağdan gətirilən gil nümunələrinin tərkibi müəyyən edilib, gil yuyucu materialın həm toz, həm də pasta formasında istehsalına başlanılıb.



Tədqiqatlar nəticəsində muxtar respublika ərazisində yem, dərman, efir yağlı, boyaq əhəmiyyətli, balverən, yeyilən yabanı qida bitkiləri, aşı maddəli, lifli, kitrəli, qlükozidli, alkaloidli, vitaminli, kosmetik və digər olmaqla, faydalı bitki qrupu müəyyən edilib. İsmayıl Hacıyev bölmənin Bioresurslar İnstitutunda steril şəraitdə qurudulan dərman bitkilərindən, hələlik 16 adda ürək və qan-damar sistemi, mədə-bağırsaq, qaraciyər, duzlaşma, şəkər və digər xəstəliklərin müalicəsində istifadə edilməsi üçün xüsusi təcrübələrlə yoxlanılmış reseptlər əsasında dərman bitkisi qarışığı hazırlandığını söyləyib. Dərman bitkisi qarışığının Naxçıvan şəhərində fəaliyyət göstərən Yaşıl Aptekdə və regionun müxtəlif əczaxanalarında satışa çıxarıldığını diqqətə çatdırıb.

Vurğulanıb ki, institutun Biokimyəvi tədqiqatlar laboratoriyasında artıq gülab istehsal edilir. Laboratoriyada həmçinin dağnanəsi, kəklikotu, üzərlik, yovşan, razyana, dazı və digər 14 bitki toxumundan yağlar, gülxətmi, sumax, boymadərən, çölnanəsi və başqa 18 adda bitki ekstraktı, bundan başqa, müxtəlif çeşidli mürəbbə, doşab və kompotlar, həmçinin dezinfeksiya, müalicəvi dərman məqsədilə



istifadə edilən suyun da alınmasına başlanılıb ki, yaxın gələcəkdə onların istehsalının genişləndirilməsi və satışa verilməsi nəzərdə tutulur.

Sonra Biokimyəvi tədqiqatlar laboratoriyasının elmi işçisi Aydın Qəmbərov iştirakçılara bitkilərdən dərmanların, müxtəlif yağların alınma mərhələsi, onların qablaşdırılması barədə ətraflı məlumat verib.

Tədbirə yekun vuran İsmayıl Hacıyev Naxçıvanın təbii sərvətlərinin öyrənilməsi üçün əlverişli şərait yaradan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*Ölkəmizdə təhsil strategiyasının əsasını qoymuş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi:* ***"Gənc nəslin tərbiyəsinə və təhsilinə ciddi fikir versək, onda gələcəyimiz üçün böyük işlər görmüş olarıq".*** *Ulu öndərin müəyyənləşdirdiyi inkişaf və tərəqqi strategiyasına böyük ehtiramla yanaşılan muxtar respublikamızda bu məsələyə çox ciddi önəm verilir.*

## Yeni lisey yaxın və uzaq gələcəyə hesablanan ən uğurlu addımlardan biridir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təhsilin davamlı inkişafını təmin edən sərəncamların imzalanması, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksəkixtisaslı kadr hazırlığını təmin edən Dövlət proqramlarının, layihələrin uğurlu tətbiqi təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verib, müasir bilik və bacarıqlara yiyələnməni təmin edib. Təhsil sahəsində innovativ təlim metodlarının tətbiqi, səriştəli müəllimlərin peşəkarlığının yüksəldilməsi, şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi, onların istedadlarının aşkar olunması və inkişafı istiqamətində mühüm addımlar atılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2020-ci il 4 avqust tarixdə "Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması haqqında" imzalanan Sərəncam bu istiqamətdə atılan növbəti addım kimi elmi-pedaqoji ictimaiyyət tərəfindən böyük sevinc və minnətdarlıqla qarşılanıb.

İxtisaslı kadrların hazırlanmasında böyük rol oynayan təmayüllü liseyin yaradılması muxtar respublikamızda ilk deyil. Bundan əvvəl dəqiq elmlər üzrə kadrların hazırlanması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılıb. Müasir tədris şəraiti ilə təmin olunan liseydə muxtar respublikanın ayrı-ayrı rayonlarından olan istedadlı uşaqlar təhsil alırlar. Onlar dövlət hesabına yataqxana və yüksəkkeyfiyyətli yeməklə təmin edilirlər. Liseydə təhsil iki pillədə – ümumi orta və tam orta təhsil pillələrində aparılır. Burada yaradılan şəraitin nəticəsidir ki, 5 ildir, fəaliyyət göstərən liseyi 76 məzun bitirib, onların 3-ü qızıl, 1-i gümüş, 14-ü isə fərqlənmə attestatına layiq görülüb. Fərəhlidir ki, məzunların hamısı respublikanın müxtəlif ali məktəblərinə daxil olaraq tələbə adını qazanıb. Həmin məzunlardan 28-nin göstəricisi isə 500-700 bal intervalında olub. Qəbulu müsabiqə yolu ilə aparılan liseydə təhsil almaq üçün hər il müraciət edən şagirdlərin sayı artmaqdadır.

Bu gün muxtar respublikada yeni və ixtisasyönümlü təhsil müəssisələrinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər istedadlı uşaq və gənclərin potensial imkanlarının aşkarlanması, inkişaf etdirilməsi baxımından uzaq gələcəyə hesablanan ən uğurlu addımlardan biridir.

İnanırıq ki, Ali Məclis Sədrinin təşəbbüsü ilə yaradılan Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey də, bu mənada, özünü doğruldacaq və təbiət elmləri sahəsi üzrə kadrların hazırlanması işinə öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirəni Təhsil naziri Rəhman Məmmədov açaraq məruzə edib.*

Vurğulanıb ki, yeni məktəblərin tikilməsi və müasir istilik sistemlərinə qoşulması birnövbəli məktəblərin də sayının artmasına səbəb olub. Belə ki, 2020-2021-ci tədris ilində muxtar respublikada fəaliyyət göstərəcək 211 ümumtəhsil məktəbindən 209-u, yaxud 99 faizi birnövbəli rejimdə işləyəcək, bu da, öz növbəsində, tədrisin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə öz töhfəsini verəcəkdir.

Payız-qış aylarında baş verə biləcək hər hansı hal üçün müəssisə rəhbərlərinin məsuliyyət daşıdığını vurğulayan Rəhman Məmmədov bildirib ki, nazirliyə birbaşa tabe müəssisələrdə, şəhər və rayon Təhsil şöbələrinin tabeliyində olan müəssisələrdə istilik sistemlərindəki nasazlıqlar aradan qaldırılmalıdır. Sertifikatı olmayan ocaqçılar qazanxana maşinisti kurslarına cəlb olunmalı, payız-qış mövsümü ilə əlaqədar təhsil müəssisələrinə veriləcək yanacaq və mal-materialdan səmərəli istifadə təmin edilməli, bütün təhsil müəssisələrində ocaqçı və gözətçilərin tərkibinə bir daha baxılmalı, dövlət mülkiyyətinin qorunmasına şüurlu münasibət formalaşdırılmalıdır. Şəhər və rayon Təhsil şöbələrində payız-qış mövsümü ilə əlaqədar nəzarət komissiyaları yaradılmalı, müntəzəm reydlər aparılmalı, ocaqçı və gözətçilərin iş vaxtına, geyim formalarına və təhlükəsizlik qaydalarına əməl etmələri nəzarətdə saxlanılmalıdır. Təhsil müəssisələrində elektrik enerjisi, su və təbii qazdan səmərəli istifadə ilə bağlı müvafiq izahat işləri aparılmalı, istilik sistemi ilə işləyən təhsil müəssisələrində istiliyin hava şəraitinə uyğun tənzimlənməsinə nəzarət edilməli, izafi xərclərə yol verilməməlidir. Təhvil-təslim kitablarının düzgün işlənməsi nəzarətdə saxlanılmalıdır.

Müşavirə məruzə ətrafında çıxışlarla davam edib.

* * *

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən müşavirəni nazir Vüsal Sevdimalıyev açaraq məruzə edib.*



Bildirilib ki, payız-qış mövsümü ilə bağlı nəzərdə tutulan tədbirlərin icrası davam etdirilir. Nazirliyin anbarında rabitə xətt, abunə qurğuları və fiber-optik sahəsi üzrə kabel ehtiyatının yaradılması istiqamətində işlər davam etdirilir, istismar edilən bütün elektron qurğuların ehtiyat hissələrinin də ehtiyatının yaradılması diqqət mərkəzində saxlanılır. Qeyd olunanlarla yanaşı, payız-qış mövsümünə hazırlıqla bağlı həyata keçirilən tədbirlər, eyni zamanda qazanxana və istilik sistemləri üzrə ixtisaslı kadrlara olan tələbatı da aktual edir. Bu səbəbdən də hazırda fəaliyyət göstərən qazanxana işçilərinin ixtisaslarının araşdırılması, bilik səviyyələrinin yoxlanması, qabaqcadan təlimatlandırılması, zərurət yarandıqda qazanxana və istilik sistemləri üzrə yeni ixtisaslı kadrların hazırlanması üçün müvafiq peşə kurslarında onların iştirakının təmin edilməsi, peşə kursu keçmiş və sertifikat almış ocaqçıların işə götürülməsi istiqamətində işlər davam etdirilir.

Vurğulanıb ki, avadanlıqların qorunması məqsədilə bütün mümkün imkanlardan istifadə olunur. Belə ki, birbaşa ümumi elektrik şəbəkəsindən qidalanan bütün avtomat telefon stansiyaları və digər qurğular xüsusi ayırıcı gərginlik releləri ilə təchiz olunub.

Diqqətə çatdırılıb ki, hazırda muxtar respublika üzrə mövcud 213 avtomat telefon stansiyasından 28-i açıq havatipli, 185-i istilik təminatı olan əsaslı təmir edilmiş və ya yeni istismara verilmiş binalarda yerləşir.

Nazir deyib ki, Rabitə və Yeni Texnologiyalar Nazirliyi yaradılmış texnologiyalardan istifadə etməklə 2020-2021-ci illərin payız-qış mövsümünü də uğurla başa vuracaq, muxtar respublikada əhalinin nümunəvi rabitə və internet xidmətləri ilə təmin olunmasına çalışacaqdır.

Müşavirə məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən iclası giriş sözü ilə açan nazir Mayis Əliyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Ali Məclisin Sədri tərəfindən digər sahələrdə olduğu kimi, ekologiya sahəsində də görüləcək işlərə dair icrası zəruri olan tapşırıqlar verilmişdir. Nazirlik qarşısında payız aylarında yeni yaşıllıqların salınması ilə bağlı hazırlıqların görülməsi, qurumuş ağacların kəsilərək hərbi hissələrə və odun kömürü müəssisəsinə verilməsi, qış mövsümündə muxtar respublika faunasının qorunması üçün müvafiq tədbirlərin həyata keçirilməsi kimi tapşırıqlar qoyulmuşdur. Payız-qış mövsümünə hazırlığın yüksək səviyyədə təmin edilməsi məqsədilə nazirliyin aidiyyəti şöbələri, tabeli idarə və müəssisələrin rəhbərləri nəzərdə tutulmuş tədbirləri vaxtında icra etməlidirlər. Bunun üçün ən vacib məsələ işin keyfiyyətinin daha da yaxşılaşdırılması üçün məsuliyyətin artırılması və ardıcıl tədbirlərin görülməsidir.



Bildirilib ki, nazirliyin İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsi aid idarə və müəssisələrlə birlikdə 2020-ci ilin payız aylarında yeni yaşıllıqların salınması ilə bağlı hazırlıqlar görməli, yeni meyvə bağlarının salınması, bərpa işlərinin planlı aparılması üçün sentyabr ayının birinci ongünlüyündək ərazilərin sxem-planlarını hazırlamalı, ting ehtiyatı müəyyənləşdirilməlidir. Texnika, maşın və mexanizmlər saz vəziyyətə gətirilməli, seçilmiş ərazilərdə torpaq hazırlığı işləri aparılmalıdır.

Sonda məruzə ətrafında çıxışlar olmuşdur.



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub. Bu məqsədlə keçirilən iclasda komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli vurğulayıb ki, avqust ayının 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi ilə bağlı Dövlət Gömrük Komitəsinin qarşısına Fövqəladə Hallar Nazirliyi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə birgə mühüm vəzifələr qoyulub.

Qeyd olunub ki, elektrik və qazla işləyən qızdırıcı cihazların muxtar respublikaya idxalına uyğunluq sertifikatı əsasında icazə verilir. Qanunvericiliyə əsasən vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi mallar məcburi sertifikasiyadan keçməlidir. Standartlara uyğunluğu təsdiq edən sertifikat olmadıqda həmin malları ölkə ərazisində satmaq və istifadə etmək qadağandır.

Vurğulanıb ki, aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış tədbirlər planına əsasən standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının satışının qarşısının alınması və gətirilmə yollarının müəyyən edilməsi məqsədilə satış yerlərində reydlərin təşkili, istehlakçılar və sahibkarların əvvəlcədən məlumatlandırılması, kütləvi informasiya vasitələrində maarifləndirici materialların verilməsi nəzərdə tutulur.

Sonra iclasın gündəliyində duran məsələlərlə bağlı çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində keçirilən müşavirəni komitənin sədri Hicran Rüstəmov açaraq bildirib ki, 2020-ci ilin ötən dövründə də quruculuq işləri uğurla davam etdirilib. Yenidən qurulmuş və ya tikintisi başa çatdırılmış obyektlərdə xarici və yeraltı istilik xətləri yenilənib, dam örtüklərinə izolyasiya qatı verilib, tüstü bacaları təmizlənib ki, bu da binaların istilik təchizatı ilə təmin edilməsində qənaətə şərait yaradacaqdır.

Qeyd olunub ki, əhalinin payız-qış mövsümünə hazırlığının təmin edilməsi məqsədilə Naxçıvan şəhərində də təmir olunan və yenidən qurulan yaşayış binalarında xeyli iş həyata keçirilib. Belə ki, Naxçıvan şəhərinin Heydər Əliyev prospektində 40, 64, “İstiqlal” küçəsində 89, 97, 125, 129, Zəroş Həmzəyeva küçəsində 117, Əliqulu Qəmküsar küçəsində 16 nömrəli yaşayış binalarının təmiri və ya yenidən qurulması zamanı qazanxanalardan binalara gedən xarici istilik xətləri yenilənib, istilik sistemləri tam saz vəziyyətə salınıb.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı müşavirədə Ali Məclisin Sədri Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə də müvafiq tapşırıqlar verib. Verilən tapşırığın icrasını təmin etmək üçün komitə sədrinin əmri ilə sədr müavini və aidiyyəti şöbə müdirlərindən ibarət yoxlama komissiyası yaradılıb. Yaradılan komissiya muxtar respublikada yerləşən inzibati binalara, sosial obyektlərə və məktəb binalarına yoxlama baxışları keçirməli, təmirə ehtiyacı olan tikililər müəyyənləşdirilməli və noyabrın 1-dək aşkar edilmiş nöqsanlar aradan qaldırılmalı, təmir işləri yekunlaşdırılmalıdır. Komissiya öz fəaliyyətində obyektiv olmalı və üzərinə qoyulmuş öhdəliyin icrasını məsuliyyətlə həyata keçirməlidir. Həmçinin Ali Məclis Sədrinin tapşırığına müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeçiliyində olan idarə və təşkilatlarda təmir briqadaları da yaradılıb ki, onlar da mütəmadi olaraq yoxlamalar aparır və yaranmış nasazlıqlar aradan qaldırırlar.

Sonra görüləcək işlərlə bağlı müzakirələr aparılıb, çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Basketbol Federasiyasının iclası keçirilib



*Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının iclası keçirilib. Gündəlikdə federasiyanın fəaliyyəti və görülən işlərin hesabatı, eləcə də yeni sədrin seçilməsi kimi məsələlər olub.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov açaraq bildirib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, idman sahəsində də mühüm işlər görülür. Yaradılan şəraitdən səmərəli istifadə edən gənclər bütün idman növlərinə maraq göstərirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirilib.

Vurğulanıb ki, 2020-ci il 1 fevral tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda müşavirə keçirilib, aid təşkilatlara konkret tapşırıqlar verilib, 2020-ci il 14 fevral tarixdə “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalanıb. Proqramın icrası ilə əlaqədar artıq bir çox işlər həyata keçirilib, müasir idman infrastrukturu yaradılıb.

Qeyd edilib ki, Naxçıvanda idmana göstərilən diqqət və qayğının nəticəsidir ki, ilbəil qazanılan medallarımızın sayı artır. Belə ki, idmançılarımız 2020-ci ilin 6 ayı ərzində keçirilən ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirak edərək ölkə birinciliklərində 21, beynəlxalq turnirlərdə 17 olmaqla, 38 medal qazanıblar.

Basketbol Federasiyasının sədr müavini Turan Həsənov çıxışında vurğulayıb ki, federasiya basketbol idman növü üzrə yüksək səviyyəli idmançıların hazırlanması, mütəxəssislərin ixtisaslarının artırılması, muxtar respublikanın yığma komandasına cəlb edilmiş federasiya üzvlərinin müvafiq çempionatlarda, həmçinin beynəlxalq yarışlarda müvəffəqiyyətlə çıxış etməsi, Dövlət proqramının icrası üçün bir sıra tədbirlər həyata keçirib.

Turan Həsənov bildirib ki, bütün bunlara baxmayaraq, idmançıların Azərbaycan və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin edilməyib, muxtar respublikaya təcrübəli məşqçilərin dəvət olunması, onların yerli idmançı və məşqçilərlə seminarları təşkil olunmayıb, heç bir beynəlxalq turnir və yoldaşlıq görüşü keçirilməyib.

Sonra Azad Cabbarov çıxış edərək bildirib ki, uşaq, yeniyetmə və gənclərin basketbol idman növünə cəlb edilməsi üçün maddi-texniki baza möhkəmləndirilib, bir sıra tədbirlər həyata keçirilib. Buna baxmayaraq, federasiya işini günün tələblərinə uyğun qurmayıb, yaradılan şəraitdən düzgün istifadə etməyib. Eyni zamanda federasiyanın idmançıları Azərbaycan və beynəlxalq səviyyəli yarışlarda iştirak etməyiblər.

Azad Cabbarov Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasına sədrliyinə namizədliyini irəli sürüb.Təklif yekdilliklə qəbul olunub və Elbrus İsayev federasiyanın sədri seçilib.

Göstərilən etimada görə dərin minnətdarlığını bildirən Elbrus İsayev vurğulayıb ki, idman sahəsinə davamlı dövlət qayğısı nəticəsində muxtar respublikada yeni idmançı nəsli formalaşıb və bu sahədə Naxçıvan müxtəlif beynəlxalq idman tədbirlərinə ev sahibliyi edir. İdman dəyərlərinin qorunması, idmançılar üçün ideal mühitin yaradılması, uşaq və gənclərin sağlam həyat tərzi yaşamasının təmin edilməsi məqsədilə uğurlu idman siyasəti həyata keçirilir.

Elbrus İsayev qeyd edib ki, Naxçıvan Dövlət Universiteti muxtar respublikada idmanın inkişafı, istedadlı gənc kadrların hazırlanması üçün müəyyən addımlar atır. Universitetdə idman klubunun xətti ilə basketbol məşğələsi fəaliyyət göstərir. Hər il universitetin daxili birinciliyi keçirilir. Müxtəlif vaxtlarda ali təhsil ocağının basketbol komandası İran İslam Respublikasında və Türkiyə Cümhuriyyətində tələbələr arasında keçirilən beynəlxalq turnirlərdə də öz güclərini sınayıb. Federasiya sədri bildirib ki, mövcud şəraitdən səmərəli istifadə ediləcək, basketbolun kütləviliyinə nail olunacaq, idmançıların ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin ediləcəkdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov yekunda yığıncaq iştirakçıları adından idmanın inkişafına yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

**Ceyhun MƏMMƏDOV**

# Naxçıvan ekoloji məsələlərdə dünyaya nümunədir

## *Bu gün Naxçıvanda ağac, sadəcə, bir məqsədlə kəsilir: ömrünü başa vurduğu üçün*



*Ekoloji vəziyyət günümüzdə dünyanı narahat edən ən qlobal məsələlərdən biridir. Məlum məsələdir ki, elmin, texnikanın inkişafı, eyni zamanda təbiətin məhvinə yönəlir, ekoloji tarazlığı pozur. Bu problemin qarşısının alınmasında isə ağac əkini, yaşıllıqlar yaradılması böyük əhəmiyyət daşıyır. Qürurverici haldır ki, ölkəmizdə yaşıllaşdırma tədbirlərinin əsası Naxçıvanda qoyulub. Bu gün müxtəlif ərazilərdə – təpələrin, çay vadilərinin, ümumiyyətlə, əkinəyararsız torpaqlarda həyata keçirilən yaşıllaşdırma siyasəti bir daha sübut edir ki, el-oba sevgisi, gələcəyə qayğı boz çölləri də gülüstana çevirir.*



Naxçıvanda bu gün təbiətə həssas münasibət təkcə peşəkarların marağında deyil. Sadə adamlar, təbiət həvəskarları, vəzifəsindən asılı olmayaraq, hər kəs yaşıllıqların genişləndirilməsinə, ekoloji tarazlığın qorunmasına töhfə verir. Naxçıvan şəhərində, rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində, eləcə də yaşayışın olmadığı yol kənarlarında, dağ yamaclarında, çay vadilərində boy-boya verən ağaclar, balaca fidanlar muxtar respublika sakinlərinin yurd sevgisindən, təbiətsevərliyindən xəbər



verir. İctimai şüura çevrilən bu işlər nə qədər zəhmət tələb etsə də, hər kəs tərəfindən könülxoşluğu ilə həyata keçirilir.

"Başına gələn başmaqçı olar", – deyiblər. Ötən əsrin 90-cı illərinin əvvəllərində enerji və təbii yanacaq sarıdan tarixin sınaqları ilə üz-üzə qalan naxçıvanlılar məcburiyyət qarşısında təbiətə sığındı, ağaclara balta çalındı. Min əzab-əziyyətlə boya-başa çatdırılan yaşıllıqlar bir neçə il ərzində məhvə sürükləndi. 1995-ci ildə yaşıllıq sahələrinin heç 1 faizə də çatmaması o günlərdəki Naxçıvanın ekoloji mənzərəsi idi. Həmin çətin günləri göz önünə gətirərək təbiətə olan "borcumuzu" bu gün artıqlaması ilə veririk. Bu gün Naxçıvanda hansısa ağaca balta vurulursa bunun, sadəcə, bir səbəbi ola bilər: o ağac ömrünü başa vurduğu üçün. Belə ağaclar doğranıb oduncaq kimi istifadə məqsədilə bəzi hərbi hissələrə göndərilir, yerinə isə yeni fidanlar salınır. Ekologiyamızda bu cür dönüş yaratmaq məqsədilə ümummilli liderimiz Heydər Əliyevin yorulmaz fəaliyyəti, uzaqgörən siyasəti hamımız üçün nümunəyə çevrildi. Ulu öndər Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illərdə ekoloji problemləri ciddi məsələ kimi önə çəkdi, özü şəxsi nümunə göstərərək çox nəcib və xeyirxah ağacəkmə aksiyaları təşkil etdi. Dahi rəhbərin ətrafında sıx birləşən sakinlərimiz təbiətə sa-



hib çıxdı, bir neçə il ərzində minlərlə hektar sahələrdə yaşıllaşdırma işləri görüldü.

Sonrakı illərdə davamlı xarakter alan bu işlər ictimai şüura çevrildi. Günümüzdə uşaqdan-böyüyə hər kəs bacardığı qədər təbiətə öz faydasını verməyə çalışır. Son illər muxtar respublikamızın rayonlarında və Naxçıvan şəhərində "Gənclər bağları"nın salınması, gənclərin bu bağlarda həvəslə çalışaraq ağac əkmələri, onlara düzgün qulluq göstərmələri ətraf mühitə daha həssas yanaşmasını göstərir. Təbii ki, bu mühitdə böyüyən hər bir uşaq ətrafındakıların ağac əkdiyini görürsə, o da belə-kürəyə sarılıb təbiətin qayğısına qalmağa çalışır. Ekoloji könüllülərin yerlərdə təmizlik-abadlıq işlərinə qoşulması onlara aşılanan düzgün tərbiyənin nəticəsidir. Bu nümunənin nəticəsini, bu dönüşün əhəmiyyətini isə təbiətimiz görür. Nəticə isə özünü bu gün muxtar respublikadakı yaşıllıq sahələrinin 20 faizədək yüksəlməsində göstərir. Təkcə bu ilin birinci yarısında muxtar respublika ərazisində 282 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 206 min 560-a yaxın ağac, bəzək və gül kolları əkilib.

Belə ekoloji tədbirlərin sayı çoxaldıqca muxtar respublikamızın iqtisadi qüdrəti daha da artır, çox mühüm ekoloji tarazlıq yaranır. Naxçıvan şəhərindən muxtar respublikamızın müxtəlif istiqamətlərinə uzanan magistrallar boyu insanı darıxdıran boz çöllər indi öz yerini bir-birini tamamlayan yaşıllıqlara verib. Həm yayda, həm də qışda gözoxşayan, qəlbi və düşüncəni zənginləşdirən yaşıl zolaqlar insan əməyinin bəhrəsidir. Bu nemətin dəyərini sözlə ifadə etmək isə çətindir. Təsəvvür edin ki, bir hektar meşə bir ildə 10-20 ton karbon qazı udur, o qədər də oksigen buraxır. Bu, bir sutkada 5 min insanın qəbul etdiyi oksigenin miqdarına bərabərdir. Digər tərəfdən min hektarlarla uzanan meyvə bağları həm də idxaldan asılılığı aradan qaldırıb. 20-25 il bundan öncəki kimi, süfrəmizin bərəkətini özgə ölkələrdən almırıq. Hətta meyvə bağlarının tonlarla məhsulunu toplayıb əsgərlərimizə sovqat göndərib, ordumuza dəstəyimizi nümayiş etdiririk.

Təbii ki, yaşıllıq salmaq işin bir tərəfidirsə, onu böyütmək, ərsəyə gətirmək, qulluq göstərmək işin digər tərəfidir. Görülən işlər içərisində vacib bir məqamı – yaşıllıqların becərilməsində mütərəqqi suvarma şəbəkəsinə üstünlük verilməsini də vurğulamaq yerinə düşər. Çünki bu suvarma üsulunun ilk olaraq Naxçıvanda tətbiqinə başlanıb. Necə ki 2004-cü ildən başlayaraq, əsası Uzunoba gölünün ətrafındakı yamaclarda qoyulan terras üsulu bu gün bir çox qumsal təpələri, əkinəyararsız çölləri əhatə edib. Naxçıvan Muxtar Respublikasında meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində ardıcıl işlər görülür. Dövlət proqramlarının uğurla icrası nəticəsində suvarma sistemləri yenidən qurulub, torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılıb, mövcud su resurslarından istifadə imkanları genişləndirilib və suvarma drenaj şəbəkələrinin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilib.

Bütün bunlar bir daha sübut edir ki, Naxçıvan Muxtar Respublikasında əlverişli ekoloji mühitin qorunub saxlanılması dövlətimizin diqqət mərkəzindədir. Son illər bu məqsədlə müvafiq dövlət proqramları qəbul edilib, ardıcıl tədbirlər görülüb. Hətta bu gün muxtar respublikada həyata keçirilən ekoloji tədbirlər beynəlxalq ekoloji təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Belə ki, muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir.



***Bu da bir həqiqətdir ki, salınan yaşıllıq diyarımızın ümumi görünüşünü gözəlləşdirməklə yanaşı, digər tərəfdən natəmizliyin, antisanitariyanın da aradan qaldırılması deməkdir, sağlamlığa göstərilən böyük qayğıdır. Bunun mahiyyətini dərk edən hər bir sakin bu gün ürəklə ağacəkmə kampaniyalarına qoşulur. Bu ənənənin mənəviyyat borcu olduğunu tam mənası ilə dərk edən insanların əməyi ilə muxtar respublikanın ərazisinin ecazkar, füsunkar görünüşü daha da artır. Bu işlər həm də təbiəti bizimlə bir ailəyə çevirir. Burada insanla təbiətin həmahəngliyi yaranır. Hər bir vətəndaş ana təbiətin keşiyində durmağı, təbii sərvətlərimizi qorumağı müqəddəs borc sayır.***

✍ **Gülcamal TAHİROVA**

---

*Dünyanın 51 ali təhsil müəssisəsi ilə əməkdaşlıq edən "Naxçıvan" Universiteti Türkiyənin İstanbul Universiteti ilə əməkdaşlığı yeni tədris ilində daha da genişləndirir.*

## Ali təhsil ocağı İstanbul Universiteti ilə əməkdaşlığı genişləndirir

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "Naxçıvan" Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu İstanbul Universitetində olub. Prorektor ali təhsil ocağının bir sıra rəhbər şəxsləri ilə görüşüb.

Görüşlər zamanı İstanbul Universitetinin İqtisad fakültəsi ilə "Naxçıvan" Universitetinin İqtisadiyyat fakültəsi arasında əməkdaşlığın genişləndirilməsi əsas diqqət mərkəzində olub. İstanbul Universitetinin İqtisad fakültəsinin dekanı, professor Sayım Yorğun ilə görüşdə İqtisadiyyat ixtisası üzrə ali təhsil ocaqlarında olan müəllimlərin qarşılıqlı mübadiləsi ilə bağlı protokollar imzalanıb, universitetlər arasında ikili diplomun təşkili, "Naxçıvan" Universitetində yeni yaradılmış "Kompüter mühəndisliyi" ixtisasının günün tələblərinə uyğunlaşdırılması məqsədilə təcrübə mübadiləsi, İqtisadiyyat ixtisasının ingilis dilində akreditə edilmiş tədrisi ilə bağlı fikir mübadiləsi aparılıb. Bundan başqa, İstanbul Universiteti ilə "Naxçıvan" Universiteti arasında 2020-2021-ci tədris ilində 7 ixtisas üzrə tələbə-təcrübə mübadiləsinin aparılması ilə bağlı razılıq əldə olunub.

Görüşdə ötən tədris ilində müəllim mübadilə proqramı ilə "Naxçıvan" Universitetində olan İstanbul Universitetinin müəllimi, professor Haluk Tanrıverdi də iştirak edib. Professor "Naxçıvan" Universitetində, ümumilikdə, Naxçıvan Muxtar Respublikasında təhsilə göstərilən diqqətdən danışıb. Bildirib ki, İstanbul Universiteti ilə "Naxçıvan" Universiteti arasında əməkdaşlıq bundan sonra da inkişaf etdiriləcək.

**Seyfur HACIMURADOV**

---

## Məktəblilərin ekskursiyası təşkil edilib

***Məktəblilərə vətənpərvərlik və vətəndaşlıq hisslərini aşılamaq, onların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə Naxçıvan şəhərindəki məktəblərin şagirdlərinin Naxçıvan Döyüş Şöhrəti Muzeyinə ekskursiyası təşkil olunub.***

Ekskursiyada ordu qərargahının zabiti, polkovnik-leytenant Allahverdi Cabbarov şagirdlərə ətraflı məlumat verərək bildirib ki, ümumi sahəsi 13 min kvadratmetr olan muzeydə 40 adda silah, texnika və qurğular – haubitsa, top və minaatanlar, hava hücumundan müdafiə üzrə döyüş maşınları, zenit raket və qurğuları nümayiş olunur. Burada "Mi-8T" döyüş-nəqliyyat vertolyotu, yerqazan və manevləğvetmə maşınları, tanklar, piyadanın döyüş maşınları, zirehli transportyor və döyüş kəşfiyyat maşınları, dartıcılar, eləcə də müxtəlif hərbi təyinatlı avtomobillər də yer alıb. Bildirilib ki, hər bir döyüş texnikası audio-məlumatlandırma sistemi ilə təmin edilib.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 615